**Sənubər MUSTAFAYEVA**

*"Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının baş müəllimi*

# KİTABXANA TƏSNİFATI NƏZƏRİYYƏSİNİN İNKİŞAFI

***Açar sözlər**: Təsnifat sistemləri, Xarici ölkələrdə kitabxana təsnifatının inkişafı, M.Dyunin təsnifatı, Rusiyada kitabxana təsnifatının yaranması, Coxaspektli təsnifat sistemləri.*

***Ключевые слова:** Классификационные системы, Развитие библиотечной классификации за рубежом, Классификация М.Дюьи, Развитие библиотечной классификации в России, Многоаспектные классификационные системы.*

***Key words:** Classification systems, development of library classification abroad Classification M.Dewl, development of library classification in Russia, Multidimensional classification sistemy.ary*

Elmin, texnikanın və istehsalın inkişafı ilə əlaqədar sənəd kütləsi artmışdır. Bununla əlaqədar olaraq mütəxəssislərin məlumata tələbatı dərinləşərək mürəkkəbləşmişdir. Bütün bunlar məlumatın axtarıxı və xidməti sahəsəndə ciddi problemlər yaratmışdır.

Məlumatın surətlə artımı ilə əlaqədar olaraq onun operativ yayılması, işlənməsi, axtarışı problemlərini yaradır. Bütün bunlar öz həllini kataloqların təşkilində, avtomatlaşdırılmış kataloqlaşdırma sistemlərinin yaradılmasında tapır.

Kataloqların köməyi ilə oxucu müəyyən kitabxana fondu ilə əlaqəyə girir, axtardığı sənədin və ya müəyyən mövzuya dair ədəbiyyatın kitabxanada olub-olmamasını öyrənir. Müasir elmi-texniki tərəqqi və məlumatın tələbatı baxımından kataloqların təkmilləşdirilməsi və avtomatlaşdırılması tələb olunur.

Avtomatlaşdırılmış kataloqlaşdırılmadan əvvəl, elektron kataloqlarından əvvəl, sadə kitabxana kataloqları yaradılmışdır ki,



bunlar da özünəməxsus xüsusi yol keçmişdir. Sənədlər bu kataloqlarda müəyyən qayda üzrə təsnifləşdirilmişdir.

Təsnifat elmdə və təcrübədə geniş istifadə olunan anlayışdır. Sənədlərin və digər materialların məzmununa görə şöbələrə ayrılması, onların elmin hansı sahəsinə aid edilməsinin müəyyənləşdirilməsi prosesinə təsnifləşdirmə deyilir.

Təsnifləşdirmə anlayışı qədim Yunanıstanda meydana gəlmişdir. Hərfi mənası əşyaları, hadisələri, ümumiyyətlə varlığı qruplaşdırma və ya sistemləşdirmə deməkdir. Kitabxana işində isə təsnifləşdirmə çap əsərlərinin müxtəlif əlamətlərə görə sistemləşdirilməsidir. Kitabxana – biblioqrafiya və elmi məlumat daşıyıcıları təsnifləşdirilərkən onların məzmunu əsas əlamət kimi götürülür, yəni əsərlər məzmununa görə qruplaşdırılır. Müasir mərhələdə elmi – texniki tərəqqidə iki əsas proses daha çox nəzərə çarpır. Birincisi elmlər getdikcə dəqiqləşir, fərdiləşir, yəni hər hansı elm sahəsinə çevrilir. İkinci proses elmlərin inteqrasiyasıdır, yəni elmlər arasında əlaqə yaranır. Bir elmin metodu başqa bir elmdə tətbiq olunur, bir neçə elm bir-biri ilə birləşib yeni elm yaradır. Bütün bunlar öz əksini çap əsərlərində tapır. Odur ki, çap əsərlərinin məzmununun mürəkkəbləşməsi, onların çoxtərəfli olması, təsnifləşdirmənin qarşısında bir sıra tələblər qoyur.

Kitabxana təsnifatı, təsnifləşdirmə metodikasının təkmilləşdirilməsi tədricən yaranmışdır. O, uzun inkişaf yolu keçmiş, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təkmilləşmişdir. Kitabxana təsnifatı həmişə elmlər təsnifatı ilə əlaqədar inkişaf etmiş və ona əsaslanmışdır. Qədim zamanlarda, çap kitabları meydana çıxmamışdan əvvəl mövcud olan kitabxanalarda əlyazmalarını və başqa materialları sistemə salmaq üçün onların məzmununa uyğun kataloqlar tərtib edirdilər. Hələ qədim dünyada gələcək elmi biliklərin inkişafına kömək etmiş elmlər təsnifatı işlənib hazırlanmışdır. Bu da onu göstərir ki, o dövrdə Yunanıstanda və Romada kitabxana

təsnifatı yüksək səviyyədə olmuşdur. Həm də bu kitabxanalar o dövrün elmi dünyagörüşünün və biliklərin mərkəzi olmuş, onların divarları arasında görkəmli alimlər, filosoflar, şairlər işləmiş, yazıb yaratmışlar.

Qədim zamanlarda belə kitabxanalarda kitablar müəyyən qaydaya uyğun sistemləşdirilmişdir. O dövrün kitabxanalarında əsasın sistemli kataloqdan istifadə edilmiş və onun daxilində ədəbiyyat mövzular üzrə qruplaşdırılmışdır. Bunu sübut etmək məqsədilə üç əsas məxəzə müraciət etmək olar:

1. Mühafizə olunub saxlanan ədəbiyyat göstəriciləri;

2. Bizə qədər gəlib çatan qədim kataloqların hissələrindən parçalar;

3. Arxeoloji qazıntılar zamanı tapılmış qədim kitabxanaların qalıqları.

İlk sistemli kataloqlara b.e. əvvəl VII əsrdə Aşurbanipalın Neneva kitabxanasında təşkil edilmiş kitab siyahılarını aid etmək olar. Burada 30 mindən yuxarı gil lövhələri sistemli qaydada saxlanılırdı.

Fransa assurşünası İoaxim Menan çar Aşşurbanipalın kitabxanasında kitab və başqa sənədlərin hansı prinsipə görə düzülməsini müəyyənləşdirməyə səy göstərmiş və orada şöbələrin aşağıdakı ardıcıllıqla düzülməsini bildirmişdir: qrammatika, tarix, qanun və hüquq, təbiət haqqında biliklər, canlılar haqqında, bitkilər haqqında, coğrafiya, riyaziyyat və s.

B.e. əvvəl III əsrdə yaranmış və yarım milyon cilddən çox fondu olan məşhur İskəndəriyyə kitabxanasının kataloqu şair və alim Kallimax (b.e. əvvəl 260-240) tərəfindən tərtib edilmişdir. Kataloq – "Cədvəl" 120 şöbədən ibarət idi.(5,s.66) Burada materiallar elm sahələrinə görə deyil, sistemli qaydada ixtisaslar üzrə qruplaşdırılmışdır (məs., şairlər, filosoflar, tarixçilər). Siniflər daxilində əsərlər xronoloji qaydada verilmişdir. Geniş siyahılar an-



notasiya ilə təchiz edilmişdi. Beləliklə, məzmuna görə mətnlərin təsnifləşdirilməsi qədim kitabxanalarda belə tətbiq edilirdi.

Kitab mərkəzi olan orta əsr monastr kitabxanalarını kitabın sistemləşdirilməsinə xüsusi təsir gösərmişdir. Kilsələrin ixtiyarında olan bu dövrün kitabxanaları qapalı xarakter daşımış, fondun əksəriyyətini dini kitablar təşkil etmişdir. Kitabların sayı çox az, məzmunu isə yeknəsək olduğundan onları saxlayan kitabxanaçının təsnifata ehtiyacı olmamışdır. Əsas şöbələrdən ilahiyyat, tarix, hüquq, incəsənət ön planda verilmişdir.

Kitab çapının meydana gəlməsi ilə nəşriyyat təsnifatına ehtiyac yaranır. Çap kitabının ilk kataloqu 1428-ci ildə məşhur İtaliya şairi Aldan Manusiya (1450-1515) tərəfindən hazırlanmışdır. Onun kataloqunda kitablar böyük sahəvi şöbələr üzrə sistemləşdirilmişdir.

Fransa nasiri R.Etyenin (1503-1559) tərtib etdiyi kataloqda kitablar elmi fənnlər üzrə bölünmüşdür.

XV əsrin axırlarından etibarən universitet kitabxanalarında ədəbiyyat tədris olunan fənnlər üzrə sistemləşdirilirdi. XVI-XVII əsrlərdə yayılmış kitabxana təsnifatının fakültə sisteminin yaranması həmin dövrə təsadüf edir. Belə ki, Universitetlərin çoxunda 4 fakültəyə (fəlsəfə, təbabət, hüquq, ilahiyyat) uyğun olaraq fond dörd hissəyə bölünürdü. Şöbələr daxilində kitablar ya əlifba sırası ilə, ya da heç bir xırdalanma olmadan şərti nömrələr üzrə verilirdi. Bu dövrdə bir sıra müəlliflər həmin sistemi müdafiə edərək öz təsnifatlarını yaratmışlar. Bu cəhətdən Konrad Gesnerin adını xüsusilə qeyd etmək lazımdır.

İsveçrəli Konrad Gesner (1516-1565) XVI əsrin hərtərəfli yetişmiş alimlərindən idi. O, yunan dilinin professoru, filosof, həkim, zooloq, təbiətşünas, tarixçi və biblioqraf idi. Kitabxanaşünaslıq ədəbiyyatında onu "Qərbi Avropa biblioqrafiyasının atası" adlandırırdılar. Gesner bu sahələrin hər birinə dair görkəmli

əsərlər yazmışdır. O, nəzəriyyənin təcrübə ilə əlaqələndirilməsinə ciddi fikir vermişdir. Gesner tarixdə ilk dəfə olaraq təbiəşünaslıq muzeyi təşkil etmiş, botanika bağı salmış və xüsusi həkim laboratoriyası düzəltmişdi.

Kitabxanaşünaslıq və biblioqrafiya sahəsində fəaliyyətə Gesner özünün "Ümumi kitabxanalar" əsəri ilə başlamışdı. (3, s.122) Bu əsərdə yunan, latın və yəhudi dilində yazılmış öz dövrünə görə məşhur kitabların biblioqrafik təsviri verilmişdir. Əsər iki cilddən ibarət idi. Birinci cilddə materiallar müəlliflərin əlifbası üzrə verilmişdi. İkinci cilddə isə həmin materiallar sistemli qayda üzrə verilmişdi. Bu cilddə o, kitabları qruplaşdırmaq üçün iyirmi bir bölmədən istifadə etmişdir. Gesner ikinci cildin daxili quruluşu üçün xüsusi təsnifat tərtib etmişdir. Onun təsnifatı biblioqrafiyanın təcrübi məsələlərinə əsaslanırdı.

Gesnerin təsnifatında müxtəlif elmlər XVI əsrdə Avropa Universitetlərində və məktəblərində onların tədris edildiyi ardıcıllıqla verilmişdir (məsələn, qrammatika, dialektika, ritorika, hesab, həndəsə, musiqi, astronomiya və s.). Təsnifatın diqqətəlayiq cəhətlərindən biri odur ki, burada şöbələr daxilində materiallar daha kiçik qruplara bölünmüşdür. Ümumiyyətlə onun təsnifatında 250-dən artıq rubrika verilmişdir.

Gesnerin təsnifatının əsas bölmələri aşağıdakılardan ibarət idi:

I. Qrammatika haqqında – buraya yazı, əlifba, dil, müxtəlif lüğətlər və s. daxil idi.

II. Dialektika haqqında – buraya dialektikanın ümumi məsələləri və Antik filosofların əsərləri daxil idi.

III. Ritorika haqqında – buraya natiqlik sənətindən və məşhur natiqlərin həyatından bəhs edən əsərlər daxil idi.

IV. Poetika haqqında – buraya təmsillər, dramlar, komediyalar, mahnılar, epiqramlar və başqa bədii əsərlər daxil idi.



V. Riyaziyyat haqqında – buraya riyaziyyatın ümumi məsələləri, hesab və riyaziyyatın təcrübi məsələləri daxil idi.

VI. Həndəsə haqqında – buraya həndəsənin ümumi məsələləri, həndəsi disturlar, həndəsənin əsaslarını hazırlayanlar haqqında, geodeziya və təcrübi həndəsə daxil idi.

VII. Musiqi haqqında – buraya musiqinin ümumi məsələləri, qədim və müasir müəlliflərin musiqi əsərləri, musiqi alətləri və onların ixtiraçıları haqqında materiallar daxil idi.

VIII. Astronomiya haqqında – buraya astronomiyanın ümumi məsələləri və astronomlar haqqında, ulduzlar və müxtəlif planetlər haqqında, vaxtın hesablanması, il, gün və aylar haqqında müxtəlif təqvimlər daxil idi.

IX. Astrologiya haqqında – buraya astronomiyanın ümumi məsələləri və onun görkəmli nümayəndələri, havanın ölçülməsi və s. məsələlər daxil idi.

X. Baxıcılıq və münəccimlik sənəti haqqında – buraya münəccimlik, falçılıq işləri, müxtəlif möcüzələr, yuxu və s. haqqında materiallar daxil idi.

XI. Coğrafiya haqqında – buraya ümumi məsələlər, səyahətlər, coğrafi xəritələr, müxtəlif qitələr haqqında, okeanlar, dənizlər, o dövrdə kəşf edilən yeni torpaqlar və adalar haqqında və s. məsələlər daxil idi.

XII. Tarix haqqında – buraya ümumi tarix, Avropa tarixi, səfirlər və elçilər haqqında, ayrı-ayrı ölkələrin tarixi və s. məsələlər daxil idi.

XIII. İnsan həyatı üçün faydalı olan müxtəlif incəsənət sahələri haqqında – buraya arxitektura, tikinti materialları, tikinti işləri, şəhər tikintiləri, müxtəlif peşə və alətlərin sənətkarlıq, zərgərlik, şüşə və güzgü işləri, rəssamlıq və nəqqaşlıq, aktyorluq sənəti, ticarət və kənd təsərrüfatı işləri daxil idi.

XIV. Təbiət fəlsəfəsi – buraya daş, metal, bitkilər və heyvanlar haqqında, minerallar, insanlar və onların hissiyyatı, görmə qabiliyyəti, işıq və zövq, yaddaş, xatirat, həyat və ölüm, gənclik və qocalıq və s. daxil idi.

XV. İlk fəlsəfə haqqında – buraya fəlsəfənin ümumi məsələləri və qədim filosoflar haqqında, tale və qabaqgörənlik haqqında, məbədlər və müqəddəs yerlər, din və müxtəlif dini adətlər haqqında məsələlər daxil idi.

XVI. Əxlaq fəlsəfəsi haqqında – buraya Aristotel etikası bütünlükdə daxil idi, habelə xoşbəxtlik, sevgi, xeyirxahlıq və başqa məsələlər haqqında materiallar daxil idi. Sevinc, şərəf, ümid, cəsurluq, dostluq, insanpərvərlik və s. məsələlər də bu şöbədə verilirdi.

XVII. İqtisad fəlsəfəsi haqqında – buraya ümumi məsələlər, qohumluq əlaqələri, evlad, qardaş-bacı haqqında, uşaqlıq, gənclik və qocalıq haqqında, tərbiyə, təhsil haqqında və digər məsələlər daxil idi.

XVIII. Siyasət haqqında və yaxud fəlsəfənin mülki hissəsi – buraya siyasət haqqında qədim və müasir kitablar, dövlət haqqında, xalq hakimiyyəti haqqında, vətəndaşlıq haqqında, ali hakimiyyət orqanları haqqında, məhkəmə haqqında, qanunlar və məcəllələr, hərbi iş və müharibə, hərbi silahlar, hərbi strategiya və taktika haqqında və s. məsələlər daxil idi.

XIX. Kilsə və vətəndaşlıq hüququ haqqında kitablar.

XX. Təbiət haqqında.

XXI. Xristianlıq dini haqqında.(3,126)

Məlum olduqu kimi Gesnerin təsnifatı quruluş etibarilə əsasən özündən əvvəlki təsnufat sistemlərindən az fərqlənir. Lakin onun başlıca xidmətləri ondan ibarətdir ki, burada bölmələr daha kiçik yarımşöbələrə bölünür, şöbələr daxilində isə materiallar onların universitetdəki tədrisi ardıcıllığı üzrə qruplaşdırılırdı. Gesnerin təsnifatının xarakterik xüsusiyyətlərindən biri də hər bölmənin əvvəlində həmin sahənin ümumi məsələlərinə yer verilməsidir. Onun təsnifatında bir-biri ilə əlaqəsi olan şöbələr isnad vasitəsilə göstərilmışdir.



Qeyd etmək lazımdır ki, Gesnerin təsnifatında şöbələr müfəssəl işlənmişdir. O dövrün yeni elmi məsələlərini işıqlandıran kitablar üçün xüsusi bölmələr, həmçinin rubrikaların uyğunluğu, yarımşöbələrin biri-birinə bağlı şəkildə verilməsi, müvafiq isnadların olması da diqqəti cəlb edir.

Təsnifatın mütərəqqi cəhəti onda ilk dəfə olaraq “İnsan həyatı üçün faydalı olan mexaniki sənət” adlı bölməsinin verilməsi idi.

Bununla belə Gesnerin təsnifatı bir sıra ideoloji nöqsanlara malik idi. Belə ki, baxıcılıq, falçılıq, möcüzə, tale, bəxt kimi əfsanəvi məsələlərə yer verməklə o, öz təsnifatının elmi əhəmiyyətini azaltmışdır. Bütün bunlara baxmayaraq Genserin təsnifatı Qərbi Avropada kitabxanaşünaslıq və biblioqrafiya təsnifatının ilk əsasını təşkil etmişdir.

XVI əsrdə Qərbi Avropada bir sıra təsnifatlar yaranır. Bunların içərisində fransız biblioqrafı Fransua Qrüde De la Krua dyü Menin (1552-1592) təsnifatı mühüm yer tutur.

1583-cü ildə Fransa kralı III Henrix Kral kitabxanasının layihəsini hazırlamağa ona tapşırır. Həmin layihəyə əsasən 100 şkaf və hər şkafda 100 kitab yerləşdirilməli və bu hesabla kitabxanada 10 min kitab olmalı idi. Belə ki, hər şkafa müəyyən mövzuya dair kitablar yerləşdirilməli və şkafın üzərinə onun əhatə etdiyi mövzular yazı ilə göstərilməli idi.

Layihədə bütün şkafların üzərindəki mövzuların siyahısı verilmiş və onlar rəqəm indeksləri ilə işarələnmişdir. Siyahıda 1-dən 107-yə qədər xüsusi rəqəm indeksi verilmişdir.

Bir sıra xarici ölkə müəllifləri De la Krua Dyü Menin siyahısında mexaniki şəkildə olsa da onluq təsnifatın ibtidai sxeminin verildiyini iddia edirlər. Onların fikrincə sonrakı əsrlərdə onluq təsnifatın yaranması Dyü Menin sxeminə əsaslanmışdır. Hətta Amerika kitabxanaşünası Melven Düi onluq təsnifatın cədvəlini bu sxem əsasında qurmuşdur. Əslində isə bu müəlliflər səhv edirdilər. De la Krua Dyü Men öz təsnifatında 10 bölmə deyil, 7 şöbə vermiş, onları isə 107 yarımşöbəyə bölmüşdü. On şkafda o, 7 böyük bölmə vermişdir. Bunlar aşağıdakılardır: (3, s.112)

1. Birinci bölmə - "Ən müqəddəs əşyalar və onlarla bağlı olan məfhumlar" (1-17-ci şkaflar)
2. İkinci bölmə - "Elm və incəsənət haqqında" (18-41-ci şkaflar)
3. Üçüncü bölmə - "Kainat haqqında" (42-62-ci şkaflar)
4. Dördüncü bölmə - "İnsanların yaranması haqqında və onlarla əlaqədar olan məsələlər" (63-72 ci şkaflar)
5. Beşinci bölmə - "Müharibələrdə şöhrət qazanmış adamlar haqqında" 73-81-ci şkaflar)
6. Altıncı bölmə - "Allahın yaratdıqlarına aid olanlar" (82-96-cı şkaflar)
7. Yeddinci bölmə - "Müxtəlif xatirələr və qarışıq materiallar" (97-107-ci şkaflar)

Bunların hər biri isə öz növbəsində ayrı-ayrı sahələrə bölünürdü.

Birinci bölmədə hər şeyə qadir olan allah, xristian dini və s. məsələlər verilmişdir.

İkinci bölmə təbabət, fəlsəfə, riyaziyyat, musiqi, poeziya, tarix, qrammatika, ədəbiyyat və başqa sahələri əhatə edir.

Üçüncü bölmənin birinci şkafında dünyanın yaranması haqqında ədəbiyyat yerləşdirilmişdi. Bunun ardınca isə ayrı-ayrı qitələrin coğpafiyası verlmişdir.



Dördüncü şöbədə insanların yaranmasından, adət və ənənəsindən, hətta insanlar arasında ticarət və mədəniyyət əlaqələrindən bəhs edən materiallar yerləşdilirdi.

Beşinci bölmədə imperatorlar, krallar, dvoryanlar və cəngavərlər haqqında olan materiallar verilmişdi.

Altıncı bölmədə müxtəlif materiallar haqqında, habelə su, quşlar, heyvanlar, balıq, bitkilər və bir sıra başqa şeylər haqqında olan materiallar verilmişdi.

Nəhayət, yeddinci bölmədə məzmunundan asılı olmayaraq bir neçə müxtəlif məsələni ümumi şəkildə əks etdirən kitablar, həmçinin latın dilində və müxtəlif xarici dillərə olan kitablar yerləşdirilirdi. Burada məşhur adamların şəkilləri, xəritələr və əyləncə kitabları da saxlanılırdı.

Yeddinci bölmə öz məzmunu etibarilə bundan əvvəlki kitabxana təsnifatının "Ümumi bölməsini"xatırladır. Qeyd etmək lazımdır ki, De la Krua Dyü Menin təsnifatı XVI əsr Fransanın feodal aristokrat sinfinin ideologiyasını əks etdirir.

XVII əsrdə ədəbiyyatın rəflərdə sistemli düzülüşü üçün ilk kitabxana təsnifatlarından biri 1627-ci ildə yaranmışdır. Onun müəllifi məşhur Fransa kitabxanaçısı və kitabşünas, həkim Q.Nodedir (1600-1653). Qabriel Node özünün "Kitabxananın quruluşuna dair məsləhətlət" kitabında kitabların rəflərdə düzülüşünə böyük əhəmiyyət verirdi. Onun təsnifatı 12 əsas şöbədən ibarət idi. O kitabxanalar üçün sistemli və əlifba kataloqlarını əsas götürürdü.

XVII əsrin ikinci yarısında təsnifat sahəsində Alman filosofu Qotfrid Vilhelm Leibninsin (1646-1716) rolu daha böyükdür. (1, s. 89) O özünün insan təfəkkürünə dair yeni təcrübələr" adlı əsərində bilavasitə fakültə sistemi məsələlərinə toxunmuş və müqayisəli şəkildə onun üstünlüyünü göstərmişdir. O, öz dövrünün böyük filosof və riyaziyyatçısı olmaqla bərabər həm də yaxşı kitab-

xanaçı idi. Leybnits öz əsərində biliklərin sintetik və nəzəri düzülüşünü, onun analitik və təcrübi təsnifini qeyd etmişdi. Onun tənifatında elmlər aşağıdakı qayda üzrə qruplaşdırılmışdır: 1.İlahiyyat, 2.Hüquqşünaslıq, 3.Təbabət, 4.Ruhani fəlsəfə, 5.Riyaziyyat və yaxud təsəvvür edilən şeylərin fəlsəfəsi, 6.Fizika və yaxud hiss olunan şeylərin fəlsəfəsi, 7. Dil elmi və yaxud filologiya, 8.Vətəndaş tarixi, 9.Yazı və kitabxana işinin tarixi, 10.Ümumi şeylər və qarışıq elmlər.

Göründüyü kimi onun təsnifatı 10 şöbədən ibarət olmuşdur. O öz təsnifatını tərtib edərkən fakültə sistemini əsas götürmüşdür. İlk dəfə olaraq riyaziyyat, fizika, filoloji elmlər onun təsnifatında ayrıca şöbə kimi verilmişdir. O, tarixi kitabxana işinin tarixi ilə yaxınlaşdırmışdır. Digər təsnifat sistemlərindən fərqli olaraq coğrafiya təbii elmlərdən ictimai elmlərə keçirilmişdir. Onun bu təcrübəsi indiyə qədər UOT-un 9-cu şöbəsində saxlanılmışdır.

XVII əsrdə Qərbi Avropada yaranmış "Fransız sistemı" təsnifatı da bizə məlumdur. "Fransız sistemi" bir çox cəhətdən "fakültə sistemi"nin eynidir. Burada əsas yeri ilahiyyat, hüquq və fəlsəfə (təbabət fəlsəfə bölməsinə daxil edilir) bölmələri tuturdu. Lakin bu sistemin bəzi variantlarında da bəzi elmlər fəlsəfənin tərkibindən ayrılmışdır. Belə ki, müstəqil tarix, humanitar elmlər, bədii ədəbiyyat və bir sıra başqa bölmələr yaranır. Sonrakı illərdə bu sistem bir qədər təkmilləşərək Avropa ölkələrinin kitabxanalarında tətbiq olunmuşdur.

XVIII əsrin 90-cı illərindən başlayaraq Fransa kitabxanaçıları həmin sistemi dəyişdirmək və ilahiyyatı təsnifatın əvvəlindən sonuncu bölməyə keçirməyi təklif edirdilər.

XVIII və XIX əsrin kitabxana təsnifatı sxemlərinin yaradılması, o cümlədən "Fransız sistemi"nin sonrakı variantlarına təsiri ingilis filosofu Frensis Bekonun XVII əsrin əvvəllərində tərtib etdiyi təsnifatının böyük rolu olmuşdur.



Bu dövrdə bir sıra başqa müəlliflər də tam orijinal sistem yaratmağa çalışmışlar. Bunlardan Vyanadakı imperator kitabxasının kitabxanaçısı İohan Mixail Denis, Prosper Marşan, Adrien Baye, Fransız akademiki Jirar və başqalarını göstərmək olar.

Görkəmli şair və alim İohan Mixail Denisin (1729-1800) 1774-cü ildə yazdığı "Biblioqrafiyanın əsasları" əsəri diqqətəlayiqdir. (3,s.216)

Denis fransa təsnifat sistemindən beş əsas şöbə götürmüşdür. Bunlar aşağıdakılardır:

1. Dini kitablar
2. Hüquqşünaslıq
3. Fəlsəfə
4. Təbabət
5. Tarix

O, bu şöbələrə daha iki şöbə (riyaziyyat və filologiya) əlavə etmişdir. Həmin şöbələr "Fransa təsnifat sistemi"ndə yarımşöbə kimi verilmişdi. Denis hər şeydən əvvəl elmlər arasındakı təbii əlaqəni müəyyənləşdirməyə və bu şöbələri qruplaşdırarkən onların məntiqi ardıcıllığını yaratmağa çalışmışdır. Denis elmləri qruplaşdırarkən onların yaranması və inkişafı tarixini nəzərə almağı lazım bilirdi. O, 1777-ci ildə yazdığı "Kitabxanaşünaslığa giriş" əsərində kitabxana kataloqlarına və onların daxili quruluşunda istifadə olunan kitabxana təsnifatına yüksək qiymət vermişdir. Denis Xottingerə isnad edərək əlifba, sistemli və predmet kataloqlarını kitabxana üçün vacib hesab edirdi. O, həmçinin xronoloji, coğrafi və topoqrafik kataloqların da əhəmiyyətini inkar etmirdi. Denisin fikrincə kitabxanada həm topoqqrafik, həm də tipoqrafik kataloq olmalıdır. Topoqrafik kataloqda materiallar nəşr yerinə görə (harada, hansı şəhərdə nəşr olunduğu əlamət üzrə) tipoqrafik kataloqda isə hansı mətbuatda nəşr edildiyi əlamətlər üzrə qruplaşdırılmalıdır. O, hər iki kataloqda materialları daxilən

qruplaşdırarkən əlifba sırasını nəzərə almağı məsləhət bilirdi. Denis bütün kataloqlar içərisində üstünlüyü əlifba kataloquna verirdi.

XVIII əsrin bir sıra kitabxana kataloqlarında və ədəbiyyat göstəricilərində bəzən "Fransa sistemi" ilə əlaqəsi olmayan müstəqil təsnifat sistemindən də istifadə edilmişdir. Bu cəhət Fransa akademiyasının üzvü Jirarın əlyazmaları içərisində tapılmış "Yeni biblioqrafik təsnifat sistemi" adlı kitabı diqqəti daha çox cəlb edir. Jirar elmlərin təsnifləşdirilməsini özünəməxsus bir ardıcıllıqla vermişdir. O, dünyanın yaranmasını müqəddəs bir varlıqla bağlayırdı. Bu cəhətdən Jirar allahla və dinlə bağlı olan məsələləri öz təsnifatının birinci bölməsində verirdi.

Cəmiyyətlə, dövlətlə, müxtəlif partiyalarla və hökümət qrupları ilı bağlı olan məsələləri Jirar öz təsnifatının ikinci bölməsində verirdi. Cəmiyyətin yaranmasından, insanların həyatından bəhs edən məsələləri o, tarix adlandıraraq təsnifatın üçüncü bölməsində verirdi.

İnsan əqlinin, düşüncənin və təsəvvürün inkişafını elmlə bağlayaraq onu fəlsəfə adlandırır və təsnifatın dördüncü bölməsində verirdi.

Jirar yazının və dilin yaranmasını, ədəbiyyatın və mədəniyyətin inkişafından bəhs edən məsələləri filologiya adlandıraraq təsnifatın beşinci bölməsində verirdi.

Elmin və mədəniyyətin inkişafı Jirarın fikrincə sənayenin və incəsənətin inkişafı ilə nəticələnirdi. Bununla əlaqədar olan məsələləri o, texnologiya sdlandıraraq təsnifatın altıncı bölməsində verirdi.

Prosper Marşan "Folte kitabxanasının kataloqunda kitablar" (1709) adlı əsərində aşağıdakı tam orijinal bölgü sistemi yaratmışdır:

1. Bəşəri biliklər (I fəlsəfə)
2. Dini biliklər (II ilahiyyat)



3. Hadisələr haqqında elm (III tarix)

Adrien Baye "Alimlərin mülahizələri" (1722) adlı əsərində materialları 6 bölgüdə verir.

1. Çapçılar
2. Şairlər və onların bütün fikirlərini öz əsərində toplayanlar
3. Tarixşilər
4. Filosoflar
5. Qanunların müəllifləri
6. İlahiyyatçilar

Uohan Frank (1717-1775) 170 min kitab fondu olan Drezden kitabxanasının 7 cildlik kataloqunu tərtib etmişdir. O, kitabların rəflərdə düzülmə prinsiplərini işləyib hazırlamışdır. Burada əsas məqsəd oxucu sorğularına tez və düzgün cavab vermək, istənilən kitabı rəflərdən asanlıqla tapmağı təmin etmək idi.

XVIII əsrdə bir sıra müəlliflər fransız sisteminin fakültələr üzrə bölünməsi qaydalarını tənqid edirdilər. İlk dəfə belə müəlliflərdən Hüber Paskal Ameylon (1730-1811) olmuşdur (3, s.230). 1796-cı ildə o, öz layihəsi ilə çıxış edərək göstərmişdir ki, həm dövlət işində, həm də elmdə artıq özünə qabaqcıl yer tuta bilməyən ilahiyyatı kataloqların əvvəlində əks etdirmək üçün əldə heç bir əsas yoxdur. Lakin bununla belə o bu sistemin tam əleyhinə deyildi. Ameylon birinci yerdə "Qrammatikanı" verməyi məsləhət görürdü. Beləliklə, Ameylona görə "Fransız sistemi" aşağıdakı qaydada dəyişdirilməli idi:

1. Qrammatika
2. Məntiq
3. Mənəviyyat
4. Qanun. Hüquqşünaslıq
5. Metafizika
6. Fizika
7. İncəsənət

8. Bədii ədəbiyyat

9. Tarix

Ameylonun müasiri olan hüquqşünas, tarixçi və biblioqraf A.Q. Kamyüs (1740-1804) isə birinci yerdə biblioqrafiyanı verməyi məsləhət bilirdi. O, deyirdi ki, hər bir elmi biblioqrafiyadan başlayıb öyrənmək lazımdır. Daha sonra isə insanı əhatə edən elmlər (dünya haqqında elm, astronomiya, coğrafiya və s.) düzülməlidir.

XIX əsrdə kitabxana təsnifatının inkişafına Paris Milli kitabxanasının təsnifat sisteminin böyük təsiri olmuşdur. Təsnifatın müəllifi C.Brünedir (1780-1867). Brünenin sxemi 5 şöbədən ibarət idi.

1.İlahiyyat

2.Hüquq

3.Elm və incəsənət

4.Bədii ədəbiyyat

5.Tarix

Brünenin sistemində 400 bölgüdən istifadə edilərək ilahiyyat ön plana çəkilmişdi. Brünenin təsnifatının təsiri sonrakı sistemlərin çoxunun quruluşunda, o cümlədən Paris Milli kitabaxanasında, London Britaniya müzeyi kitabxanasında işlədillən sistemlərdə öz əksini tapırdı.

1836-cı ildə tərtib olunan Britaniya muzeyi kitabxanasının sistemi ancaq onun fondunun sistemləşdiilməsi üçün nəzərdə tutulurdu. Təsnifat 10 əsas şöbədən ibarət idi.

1. İlahiyyat 6.Tarix

2. Hüquq 7. Coğrafiya

3.Təbii tarix və təbabət 8.Bioqrafiya

4.Arxeologiya və incəsənət 9. Zərif incısənət

5. Fəlsəfə 10. Filologiya



Bu təsnifatda 220 min kitab fondu üçün nəzərdə tutulan 500-dən artıq rubrika var idi. Təsnifatın üstün cəhətləri ondan ibarətdir ki, burada filologiya bədii ədəbiyyatdan ayrılmış, biblioqrafiya isə ayrıca bir şöbə kimi götürülmüşdür. Bu dövrdə kitabxana təsnifatının inkişafında Brüssel Krallıq kitabxanasının təsnifatının da böyük rolu olmuşdur. Təsnifat J. Namür (1804-1867) tərəfindən tərtib edilərək kitabxana fondunun düzülüşü üçün nəzərdə tutulmuşdur. O, qeyq edirdi ki, kitabları elmi və metodiki qayda ilə düzmək lazımdır.

Brüssel kitabxanasının əsas bölgüləri aşağıdakılardan ibarətdir: (5,s.75)

1. Elmşünaslıq
2. İlahiyyat
3. Filosofiya və pedaqogika
4. Hüquq
5. Fizika-riyaziyyat elmləri
6. Tibb
7. İncəsənət və sənət
8. Filologiya və bədii ədəbiyyat
9. Tarix və köməkçi elmlər
10. Qarışıq elmlər. Məcmuələr. Dövrü nəşrlər

Namür öz təsnifatında F.Bekonun təsnifatından istifadə edərək elmləri əks ardıcıllıqla vermişdir.

Qeyd etmək lazımdır ki, Namürün təsnifatı 40 il sonra yaranmış onluq təsnifatın sələfi kimi qəbul edilə bilər. Hətta hər iki təsnifatda bir çox şöbələr uyğun gəlir.

2. İlahiyyat

5 Təbii elmlər

6. Tibb

7. İncəsənət

8. Ədəbiyyat

9. Tarix və coğrafiya

Bu dövrdə eyni zamanda fransız kitabxanaçısı R.Merlenin (1793-1876) sistemi meydana çıxır. Merlen təsdiq edirdi ki, kitabxana təsnifatı məhz elmlər təsnifatının əsasında qurulmalıdır.

XIX əsrin ortalarında Britaniya muzeyinin əməkdaşı E.Edvars (1812-1886) tərəfindən ilk dəfə kütləvi kitabxanalar üçün təsnifat cədvəli tərtib edilmişdir. (5, s.80) O, 1859-cu ildə çap olunmuş "Kitabxana memuarları" adlı 2 cildlik əsərində "Şəhər kitabxanaları üçün təsnifat cədvəli" dərc etdirmişdir.

Edvars qeyd edirdi ki, ən yaxşı elmlər təsnifatı belə avtomatik olaraq kitabxana kataloqlarına köçürülə bilməz, bu zaman mütləq praktiki tələblər nəzərə alınmalıdır. Onun təsnifatının əsas şöbələri aşağıdakı kimi qruplaşdırılmışdır:

A. İlahiyyat

B. Fəlsəfə

C. Tarix

D. Siyasət

E. Elm və incəsənət

Ğ. ədəbiyyat və poliqrafiya

Qeyd etmək lazımdır ki, Edvarsın sistemi XIX əsrdə kitabxanalarda tətbiq edilən əlverişli sistemlərdən biri idi.

Universitet kitabxanalarının təsnifat sistemindən bəhs edərək iki təsnifat nəzər diqqəti xüsusilə cəlb edir.

1. Parisdə Sarbonnı universiteti kitabxanasının (1855) təsnifatı

2. Almaniyada Qalli universiteti kitabxanasının (1888) təsnifatı

Sarbonnı universiteti kitabxanasının təsnifat sisteminin müəllifi F.Leba (1794-1860) olmuşdur. Onun təsnifat sistemi öz quruluşu etibarilə Brünenin təsnifat sistemindən az fərqlənirdi. Bu



sistemdən həm kataloq, həm də rəfdə kitabların düzülüşündə istifadə edilirdi.

Alman universitetlərinin təsnifat sistemi içərisində Qalli universitet kitabxanasının təsnifatı xüsusilə fərqlənirdi. Bu sxem professor-filoloq O.Qartviq belə deyirdi ki, kitabların sistemləşdirilməsi elmlər təsnifatına əsaslanmalıdır, eyni zamanda kitabın və kitabxananın xüsisiyyətləri də nəzərə alınmalıdır.

Rusiyada kitabxana təsnifatının yaranması və inkişafı tarixi demək olar ki, lazımi qədər tətbiq edilməmişdi. Lakin rus kitabxana tarixinə əsaslanaraq kitabxana və biblioqrafiya təsnifatının yaranması və inkişafı haqqında müəyyən məlumat toplamaq mümkündür. Kitabxana tarixinə əsasən qədim kitabxanaları 3 növə bölmək olar.

1. O dövrün geniş şəbəkəsi monastr və kilsə kitabxanaları

2. Şəxsi kitabxanalar

3. Müəssisə kitabxanaları

Bu kitabxanalar içərisində monastr və kilsə kitabxanaları daha çox zəngin olmuşdur. Həmin kitabxanalarda dini kitablar mühafizə olunurdu. Kitabxanaşünaslardan Zarubin XV-XVII əsrdə monastr kitabxanalarının tarixini təsdiq edib öyrənmişdir. Onun fikrincə Rusiyada kitabxana təsnifatının yaranması və inkişafı qərbi Avropa təsnifatına uyğun bir yol keçmişdir. Əvvəllər Rus kitabxana təsnifatı çox ibtidai olaraq ondan yalnız kataloqların tərtibi üçün istifadə olunurdu. Həmin kataloqlar inventar kitabını xatırladırdı. Daha doğrusu bu kataloqlar kitabxana fondunun mühafizəsi üçün təşkil olunmuşdur.

Rusiya kitabxanalarında ədəbiyyat böyük bölgü əlaməti üzrə qruplaşdırılırdı və bir qayda olaraq dini ədəbiyyat ön planda verilirdi. Tədqiqatçı N.N.Zarubin XV-XVII əsr monastr kitabxanalarının istər fondunda və istərsə də kataloqlarında ədəbiyyatın sis-

temləşdirilməsi haqqında fikir söyləyərkən qeyd edirdi ki, burada 6 əlamət nəzərə alınırdı. Məsələn:

1. Kitabın məzmununa görə sistemləşdirilməsi
2. Kitabın əlifba sırasına görə sistemləşdirilməsi
3. Kitabın formatına görə (ölçü) sistemləşdirilməsi
4. Yazılış əlamətinə görə sistemləşdirilməsi
5. Dil üzrə sistemləşdirilməsi
6. Aktuallığa görə sistemləşdirilməsi

Əlbəttə bu düzülüş növləri yalnız əlifba düzülüşündə tətbiq olunurdu.

Bizim zamanəmizə qədər gəlib çatan ilk siyahlar Kirillo Belozersk (XV əsrin sonu), habelə İosifo-Volokomsk (XVI əsrin ortaları) monast kitabxanalarına məxsusdur.

XVII əsr saray kitabxanalarında ədəbiyyat ilahiyyat, tarix, hərbi iş, riyaziyyat, tibb və s. şöbələr üzrə düzülürdü. O dövrdə həmçinin şəxsi kitabxanaların sistemləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Yazıçı və publisist Simeon Poloski (1629-1680) özünün bir sıra əsərlərində elmlərin ümumi qruplaşdırma prinsipini işləyib hazırlamışdır. Onun şagirdi və katibi yazıçı və maarifçı Y.Krijaniçin (1618-1683) əsərlərində də təsnifləşdirməyə müəyyən yer verilmişdir. O, öz əsərlərində elmləri üç bölgü sistemi (məntiq, fizika, etika) üzrə verir.

Sonrakı əsrlərdə Rusiya kitabxanalarının fondu zənginləşir. Kitab çapı inkişaf edir. Xüsusilə XVIII əsrdə Pyotrun çarlığı dövründə ölkədə sənaye və iqtisadiyyat daha da inkişaf edir, maarif və mədəniyyət sahəsində canlanma baş verir. Qərbi Avropa ölkələri ilə mədəni əlaqələr genişlənir. Kitab nəşri, xüsusilə texniki ədəbiyyatın nəşrinə daha geniş yer verilir. Kitab nəşrinin atrması ilə yanaşı olaraq I Pyotr ictimai kitabxanaların yaradılması fikrinə də maraq göstərmişdir. Pyotrun dövründə məktəb kitabxanalarının, kütləvi kitabxanaların yaradılması üçün layihələr tərtib edilmişdir. I Pyotrun təşəbbüsü ilə Rusiyada XVIII əsrdə EA-sı təşkil olunur, Moskva Universiteti yaranır (1725). Görkəmli alimlərin fəaliyyəti ilə, xüsusilə Lomonosovun fəaliyyəti sahəsində yeni kitablar meydana gəlir. Novikovun fəaliyyəti nəticəsində Rusiyada kitab çapı artır.1727-ci ildə Akademiyanın, 1756-cı ildə Universitetin zəngin kitabxanası yaranır.



Bu dövrdə şəxsi kitabxanalar durmadan inkişaf edir. I Pyotrun zəngin kitabxanası Elmlər Akademiyasına verilir. Pyotrun silahdaşı B.P.Şeremetyevin də 25 min cild kitabı olan zəngin kitabxanası vardı, burada sistemli düzülüş tətbiq edilirdi.

XVIII əsrdə kitabxana təsnifatının inkişafında müəyyən yerlərdən birini də Akademiyanın kitabxanasının kataloqları tutur. Onun ilk kitabxanaçısı Şumaxer idi (1690-1761). Şumaxer I Pyotrun göstərişi ilə uzun müddət xaricə ezam edilir. O, Akademiyada kitabların məzmun əlamətlərinə görə düzülməsini həyata keçirirdi. Lakin burada kitabların ölçüsü, onun tərtibatının başqa əlamətləri əsas götürülürdü. M.V.Lomonosov bu qaydanın son dərəcə zəif olduğunu qeyd edirdi.

Bu zaman fakültə sisteminə belə rəayət etmək mümkün deyildi. Binanın 1-ci mərtəbəsində elmlərin tarixinə dair, fəlsəfə, hüquq, etika, siyasət, riyaziyyat, filologiya, və s. elmlərə dair kitablar saxlanılırdı; II mərtəbədə tibb və kimya, təbiətşünaslıq, tarix, coğrafiya, dini kitablar və s.; III mərtəbədə şimal ölkələrinin tarixi, iqtisadiyyat, bostançılıq və bağçılıq, hərbi elmlər, hərbi arxitektura, optika və s. dair kitablar yerləşdirilirdi.

Akademiyanın kitabxanasının kataloqları haqqında dəqiq məlumat yoxdur. Lakin bəzi mənbələrdən aydın olur ki, XVIII əsrin birinci yarısında Akademiya kitabxanasında 2 növ kataloq olmuşdur. (3,s.294) Bu kataloqlardan biri latın, digəri isə rus kataloqu adlanır. Rus kataloqu Boqdanovun adı ilə bağlıdır. Rus

kataloqunda rus dilində olan ədəbiyyat əks olunurdu. Kataloq iki hissəyə bölünürdü:

1. Rus çap kitabları
2. Rus əlyazma kitabları

Hər bölmənin kitabları da 2 yerə ayrılırdı:

1. Kilsə kitabları
2. Dünyəvi kitablar

Bölmələrin daxilində materillar əvvəlcə formatına görə, sonra mövzu əlaməti üzrə qruplaşdırılırdı. Əlyazma kitablarının sistemləşdirilməsində də həmin prinsipə riayət edilirdi.

Latın kataloqunda əsasən xarici dillərdə yazılan kitablar əks olunurdu. Hər iki kataloqun daxili qruluşunu qaydaya salmaq üçün müvafiq təsnifat cədvəlidən istifadə olunurdu.

I. Dini kitablar
II. Hüquqşünaslıq
III. Tibbi kitablar
IV. Fəlsəfi kitablar

Göründüyü kimi rus kataloqlarının daxili qruluşu da aydın təşkil olunmuşdur. Ancaq bu təsnifat məntiqi və elmi cəhətdn zəif olduğuna görə sonrakı əsrlərdə kitabxana işi üçün yaramamışdır.

Boqdanov uzun müddət kitabxanada işlədiyi üçün o kitabxananın təsnifatını yaratmaq fikrinə düşür. O, təsnifatın şöbələri üçün latın hərflərindən istifadə etmişdir. Təsnifatın aşağıdakı şöbələri mövcud idi.

1. Filologiya
2. Ritorika (nitq və natiqlik)
3. Məntiq
4. Fəlsəfə
5. Tarix
6. Riyaziyyat



Bu şöbələrin hər biri daha kiçik yarımşöbələrə bölünürdü.

Rus kitabxana təsnifatının tarixindən danışarkən görkəmli rus alimi Bantış-Kamenskinin təsnifatını da qeyd etmək lazımdır. B.Kamenski (1737-1814) bir sıra tarixi, fəlsəfi və coğrafi əsərlərin müəllifidir. O, Moskva Xarici İşlər Kollegiyasının arxıvini idarə etməklə yanaşı tarixi sənədləri seçərək onların arxivinin siyahısını tərtib edir. XVIII əsrdə maarif və mədəniyyətin inkişafı, habelə kitabxana fondlarının zənginləşməsi Kamenskini elmlərin sistemləşdirilməsi üzərində düşündürərək o özünün biblioqrafiya təsnifatını hazırlayır. Onun təsnifatı 7 əsas şöbədən ibarətdir:

1. Filologiya
2. Tarix
3. Coğrafiya
4. Riyaziyyat
5. Təbabət
6. Fəlsəfə
7. İlahiyyat

Bu şöbələr özləri də yarımşöbə və bölmələrə ayrılırdı. Qeyd etmək lazımdır ki, əsas şöbələr rum rəqəmləri ilə, yarımşöbələr ərəb rəqəmləri ilə, bölmələr isə latın hərfləri ilə işarələnirdi.

XIX əsrin birinci yarısında Rusiyada kitabxana-biblioqrafiya təsnifatı daha da inkişaf edir. Əsrin əvvəllərində rus maarifçisi Pavel Qriqoriyeviç Demidovun kitabxana təsnifatı meydana gəlir. (5,s.89) O, öz şəxsi kitabxanasının kataloqu üçün təsnifat cədvəli hazırlayır. Lakin kataloq 1812-ci ildə yanır. Kataloqun indiyə qədər çox nadir nüsxələri qalmışdır. Kataloqun bir hissəsi 1846-cı ildə biblioqraf V.Undolski tərəfindən "Rus kitabxanalarının kataloqu" adı ilə çap olunmuşdur.

P.Q.Demidov kataloqa ən nadir rus və Avropa nəşrlərini daxil etmişdir. O, öz bölgüsündə F.Bekonun elmlər təsnifatının ənənəsindən uzaqlaşmış, ilahiyyatı fəlsəfə şöbəsindən çıxarmış, xü-

susi texnologiya bölməsi yaratmış, tarix şöbəsində yalnız cəmiyyət tarixini və coğrafiyanı saxlamışdır.

Demidovun təsnifatında aşağıdakı şöbələr verilmişdir.

1. Filologiya
2. Tarix
3. İlahiyyat
4. Fəlsəfə
5. Texnologiya
6. Polimatiya (siyasət)

Qeyd etmək lazımdır ki, Demidov Rusiyada müstəqil kitabxana təsnifatı yaratmağa səy göstərən ilk müəlliflərdən biri olmuşdur. Onun təsnifatının dəyərli cəhətlərdən biri texnologiyanın əsas yerlərdən birində verilməsidir. Burada həmçinin ilahiyyat da fəlsəfədən ayrılmışdır. Ümumiyyətlə Demidovun təsnifatında indeksləşdirmə, sistemləşdirmə metodikasına dair dəyərli fikirlər verilmişdir.

XIX əsrin birinci yarısında iki böyük kitabxananın təsnifat sistemləri yaranmışdır. Bu dövrdə Peterbuqr ümumi kitabxanasının təsnifatı xüsusilə diqqətəlayiqdir. Peterburq ümumi kitabxanasının açılması ilə əlaqədar olaraq (1814) 250 mindən çox kitab kolleksiyasını qaydaya salmaq zərurəti meydana çıxır. Bu dövrdə daha çox şöbə yaratmaq məsələsi qarşıda dururdu. Bu iş akademik, tarixçi arxeoloq, əvvəllər kitabxananın direktor köməkçisi, sonralar isə direktoru olan Aleksey Nikolayeviç Oleninə (1763-1843) tapşırılmışdır.

Öz işini yaxşı başa düşən Olenin özündən əvvəlki təsnifat sxemlərini, yəni fakültə sistemini tənqid etmişdir. O, alman filosofu Leybnitsin təsnifatına daha çox isnad etmişdir.

Onun 1808-ci ildə "Sankt-Peterburq ümumi kitabxanası üçün yeni biblioqrafik kitab"ı çap olunur. Kitabın müqəddiməsində onun təsnifat cədvəli verilmişdir.



I. Elmlər

Zehni elmlər: (zehni, ilahiyyat, hüquqşünaslıq, fəlsəfə, tarix)

Təbiət elmləri: (təbiətşünaslıq tarixi, həkimlik, fizika, kimya)

Dəqiq elmlər: (riyaziyyat)

II. Sənətlər (mexanika, azad incəsənət, ədəbiyyat sənəti)

III. Filologiya (dilçilik, poliqrafiya, tənqid)

Qeyd etmək lazımdır ki, Olenin fəlsəfə bölməsində psixologiyaya xüsusi yer vermişdir. Tarix bölməsində isə tarixçilərin tərcümeyi halları, şəhərlərin tarixi üzrə yarımbölmələr yaratmışdır. Təbiət şöbəsində baytarlıq, ruyaziyyatda isə onun nəzəri və tətbiqi sahələri ilə yanaşı mexanika, astronomiya, hərbi iş məsələlərini birgə vermişdi.

## *ƏDƏBİYYAT SİYAHISI:*


1.Kitabxanaşünaslıq: (Kitabxana kataloqları): Dəs vəsaiti /A.Xələfovun red ilə.- B.: BDU nəşr-tı, 1996.-210 s.

2.Mustafayeva, S.M. Müasir təsnitat sistemləri və onların tətbiqi // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2012.- N2.- S.30-41.

3.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.-Т.1. -400 с.

4.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.- Т.2.1959.-563 с.

5.Эйдельман, Б.Ю. Библиотечная классификация и систематический каталог: Учебник/ Б.Ю. Эйдельман.-М.: Книга, 1977.-312 с.

**С.М.Мустафаева**

## РАЗВИТИЕ ТЕОРИИ БИБЛИОТЕЧНОЙ КЛАССИФИКАЦИИ

### РЕЗЮМЕ

В статье освещаются развитие теории библиотечной классификации. Широко характеризуются классифации книг за рубежом от первых библиотек до XIX века, классификационные системы крупнейших библиотек, системы университетских библиотек. В данной статье также говорится о классификации книг в России, характеризуются классификации различных библиотечных систем.

**S.M.Mustafaeva**

## DEVELOPMENT OF THE THEORY OF LIBRARY CLASSIFICATION

### SUMMARY

The paper highlights the development of the theory of library classification. Widely characterized klassifatsii books abroad from the first libraries to the XIX century, the classification systems of the largest libraries of university libraries. This article also describes the classification of books in Russia, characterized by the classification of different library systems.